AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

Gəncə Dövlət Universitetinin Elmi Şurasının 29 fevral

2016-cı il tarixli iclasında (protokol №1) təsdiq edilmişdir

GDU-nun rektoru ____________ prof. Y.Ə.YUSİBOV

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

# Gəncə Dövlət Universiteti

GD 1938

## Strateji İnkişaf Planı

## 2016-2020

# MÜNDƏRİCAT


| | |
|---|---|
| REKTORUN MÜRACİƏTİ | 3 |
| GƏLƏCƏYƏ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR | 4 |
| MƏQSƏD VƏ VƏZİFƏLƏR (MƏQSƏD 1) | 5 |
| MƏQSƏD VƏ VƏZİFƏLƏR (MƏQSƏD 2) | 7 |
| FƏALİYYƏT PLANI ÇƏRÇİVƏSİ (MƏQSƏD 2) | 8 |
| MƏQSƏD VƏ VƏZİFƏLƏR (MƏQSƏD 3) | 9 |
| ƏLAQƏ | 10 |

# REKTORUN MÜRACİƏTİ



Təlim və öyrənmə zamanı keyfiyyət və innovasiya müvafiq və müasir təhsilin təmin edilməsi üçün vacibdir. Bu sahələrdə keyfiyyətin təmin olunması üçün strateji yanaşma bizim akademik və tədqiqat istiqamətlərində daha da inkişaf etməyimiz üçün başlıca amil sayılmalıdır.

Bu kontekstdə, mən sizə Gəncə Dövlət Universitetinin 2016-2020-ci illər üçün olan strateji planını təqdim edirəm. Bu strateji plan növbəti 4 il üçün nəzərdə tutulmuş məqsədləri və fəaliyyətləri özündə birləşdirir. Yaradılmış plan 2016-2020-ci illər ərzində həyata keçməsi nəzərdə tutulan üç məqsədi təqdim edir və bu məqsədlər Gəncə Dövlət Universitetində təlim , öyrənmə və tədqiqat proseslərində keyfiyyət istəyini həyata keçirmək üçün tərtib olunmuşdur.

1938-ci ildə qurulmuş Gəncə Dövlət Universiteti həm fiziki imkanları, həm təlim-təhsil keyfiyyəti, həm də araşdırma təkmilləşdirmə infrastrukturu baxımından əhəmiyyətli bir nöqtəyə gəlmişdir. Qurulduğu tarixdə 2 fakültə, 23 akademik heyəti və 244 tələbəsi olan universitetimizdə bu gün 9 fakültə, 15 şöbə fəaliyyət göstərir. Akademik heyətimiz 31 kafedra üzrə ümumilikdə 16 elmlər doktoru, professor, 2 nəfər əməkdar elm xadimi, 5 nəfər əməkdar müəllim, 1 nəfər əməkdar jurnalist, 1 nəfər əməkdar rəssam, həmçinin 183 nəfər fəlsəfə doktoru, 351 nəfər isə baş müəllim və müəllimdən ibarətdir. Hazırda universitetimizdə 5852 nəfər bakalavriat, 315 nəfər magistratura, 84 nəfər dissertantura, 67 nəfər doktorantura səviyyəsində təhsil alır.

Mən inanıram ki, Gəncə Dövlət Universitetinin 2016-2020-ci illər üçün olan strateji inkişaf planı özünü doğruldacaq və Gəncə Dövlət Universitetində təlim və öyrənmədə keyfiyyətin əldə olunması, texnologiya və innovasiyanın istifadəsinin yaxşılaşdırılması, təlim və tədqiqat proseslərin inkişafı kimi məqsədlərə nail olmaq üçün öz töhfəsini verəcək.

**Professor Yusif Yusibov**

**Rektor**

# GƏLƏCƏYƏ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR

**GƏLƏCƏYƏ BAXIŞ**

Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyət göstəricilərinə görə beynəlxalq səviyyədə tanınan bir universitetə çevriləcək.

**MİSSİYAMIZ**

Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyətli və innovativ xidmətlər göstərir

**MƏQSƏDİMİZ**

- Universitetdə keyfiyyət mədəniyyətini formalaşdırmaq, keyfiyyət sistemini yaratmaq və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq
- Təhsilverənlərin peşəkarlıq səviyyəsini yüksəltmək və müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq.
- Universiteti təhsil-tədqiqat mərkəzinə çevirmək, sahibkarlıq mədəniyyətini formalaşdırmaq, iqtisadi inkişafı sürətləndirmək və cəmiyyətə fayda vermək üçün universitetin akademik və elmi tədqiqat fəaliyyətlərini yaxşılaşdırmaq.

**DƏYƏRLƏRİMİZ**

- Təlim , xidmət və tədqiqatda mükəmməllik
- Fənnlərarası və çoxşaxəli əməkdaşlıq
- Təlim, öyrənmə və tədqiqatda yenilikçi texnologiyalara maraq
- Peşəkarlıq və dürüstlük

# MƏQSƏD VƏ VƏZİFƏLƏR

## MƏQSƏD 1

**Universitetdə keyfiyyət mədəniyyətini formalaşdırmaq, keyfiyyət sistemini yaratmaq və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq.**

| ALT MƏQSƏD | FƏALIYYƏT | ICRAÇI | MÜDDƏT |
|---|---|---|---|
| 1.1 Universitetdə keyfiyyətin təminatı üzrə yeni sistem yaratmaq | 1.1.1 Keyfiyyət standartlarını və göstəricilərini hazırlamaq<br>1.1.2 Universitetin keyfiyyət təminatı siyasətini hazırlamaq və təsdiq etmək<br>1.1.3 Keyfiyyətin təminatı mexanizminin həyata keçirilməsi üçün keyfiyyət meyarlarını və proseslərini müəyyən etmək<br>1.1.4 Strateji idarəetmənin tətbiqini yaxşılaşdırmaq məqsədi ilə 2020-2025-ci illər üçün strateji inkişaf planını hazırlamaq | -Elmi şura<br>-Rektor<br>-Keyfiyyətə təminatı mərkəzi | 2018-2020 |
| 1.2 Tədris proqramlarının tərtibi və təsdiqi istiqamətində işlər aparmaq | 1.2.1 Beynəlxalq təcrübə əsasında proqramlar hazırlamaq və təsdiq etmək<br>1.2.2 Universitetdə əlavə təhsil üzrə strukturun inkişafı məqsədi ilə əlavə təhsil üzrə yeni ixtisaslar yaratmaq | -Tədris şöbəsi<br>-Əlavə təhsil fakültəsi<br>-Tədris elektron mərkəzi | 2016-2020 |
| 1.3 Tələbə yönümlü təlim, tədris və qiymətləndirməni təşkili etmək | 1.3.1 Tələbə yönümlü təhsilin prinsiplərinə əsasən müəllimlərə dərslərin təşkili mövzusunda təlimlər keçmək<br>1.3.2 Düzgün qiymətləndirmə metodlarının yaradılması mövzusunda müəllimlərə təlimlər keçmək | -Müasir təlim mərkəzi<br>- Keyfiyyətə təminat mərkəzi<br>-Tədris şöbəsi<br>-Tədris elektron mərkəzi<br>-Fakültə dekanlıqları | 2018-2020 |
| 1.4 Tələbələrin qəbulu, irəliləməsi, kreditlərin tanınması, attestasiyası istiqamətində işlər aparmaq | 1.4.1 Tələbələrin qəbulu, irəliləməsi, kreditlərin tanınması, attestasiya ilə bağlı tənzimləyici qaydaları universitet tərəfindən müəyyənləşdirmək | - Keyfiyyətə təminat mərkəzi<br>-Tədris şöbəsi<br>-Fakültə dekanlıqları | 2018-2020 |
| 1.5 Akademik heyətin peşəkarlıq səviyyəsinin artırmaq | 1.5.1 Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün təlim proqramı yaratmaq<br>1.5.2 Gənc müəllimlər cəmiyyətini yaratmaq | -Müasir təlim mərkəzi<br>-İnnovasiyalar departamenti<br>-Keyfiyyətə təminat mərkəzi | 2018-2020 |

## MƏQSƏD 1 (DAVAMI)

Universitetdə keyfiyyət mədəniyyətinin formalaşdırmaq, keyfiyyət sistemini yaratmaq və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq.

| ALT MƏQSƏD | FƏALIYYƏT | ICRAÇI | MÜDDƏT |
|---|---|---|---|
| 1.6 Öyrənmə resurslarını yaxşılaşdırımaq və tələbələrə dəstək vermək | 1.6.1 Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsi məqsədi ilə təlim mərkəzi yaratmaq və təlimlər təşkil etmək<br>1.6.2 Sağlamlıq imkanları məhdud şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin etmək məqsədi ilə mərkəz yaratmaq və onun fəaliyyətinin təmin etmək.<br>1.6.3 Distant təhsilin təşviqi məqsədi ilə elektron öyrənmə mərkəzini yaratmaq<br>1.6.4 Kampusların yaradılması məqsədi ilə yeni yataqxanaları istifadəyə vermək<br>1.6.5 Ömür boyu təhsilə artan tələbatın ödənilməsi və kitabxana fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə yeni kitabxana yaratmaq<br>1.6.6 Rəqəmsal təhsil resurslarından istifadə imkanlarının genişləndirilməsi məqsədi ilə kitabxana resurslarını rəqəmsallaşdırmaq | -Müasir təlim mərkəzi<br>-Keyfiyyətə təminat mərkəzi<br>-Kitabxana<br>-Fakültə dekanlıqları<br>-Kafedralar | 2017-2020 |
| 1.7 İnformasiyanın idarə olunması proseslərini yaxşılaşdırmaq | 1.7.1 Təhsilin idarə olunmasının məlumat sisteminin yaradılması məqsədi ilə Moodle idarəetmə sistemini tətbiq etmək<br>1.7.2 Tələbə və müəllimlərin inkişafı, uğurları, razılıq dərəcəsi və s. ilə bağlı mütəmadi sorğular keçirmək | -İKT Şöbəsi<br>-Keyfiyyətə təminat mərkəzi | 2019-2020 |
| 1.8 İctimaiyyətin məlumatlandırılması istiqamətində işlər aparmaq | 1.8.1 Təhsillə bağlı media və internet resurslarının inkişafının təmin edilməsi məqsədi ilə universitetin onlayn televiziya kanalını yaratmaq<br>1.8.2 Maraqlı tərəflərin nümayəndələrinin iştirakı təmin etmək məqsədilə "Valideyn-Müəllim Assosiasiyası"nın yaratmaq<br>1.8.3 Məzunlar arasında əlaqələrin gücləndirilməsi və məzun bazasının sayını artırmaq üçün məzun jurnalını hazırlamaq<br>1.8.4 Univeristetin fəaliyyəti haqqında statistik informasiyanı özündə əks etdirən jurnal hazırlamaq<br>1.8.5 Universitetin fəaliyyəti haqqında bukletlər hazırlamaq | -Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi<br>-Texnologiyanın transferi və marketinqi şöbəsi<br>-İKT şöbəsi<br>-Strateji təhlil şöbəsi | 2018-2020 |
| 1.9 Davamlı monitorinq və proqramlara mütəmadi baxış təşkil etmək | 1.9.1 Keyfiyyətin monitorinqi məqsədi ilə monitorinq qruplarını yaratmaq və fəaliyyətini təmin etmək | - Keyfiyyətə təminat mərkəzi<br>-Tədris şöbəsi | 2018-2020 |
| 1.10 Davamlı olaraq xarici keyfiyyətə nəzarət üçün hazırlaşmaq | 1.10.1 Təhsil Nazirliyi tərəfindən həyata keçirilən xarici keyfiyyətə nəzarətə hazırlaşmaq | Bütün əlaqəli fakültələr, şöbələr və əlaqədar strukturlar | 2016-2020 |

# MƏQSƏD VƏ VƏZİFƏLƏR

## MƏQSƏD 2

Təhsilverənlərin peşəkarlıq səviyyəsini yüksəltmək və müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq.

| ALT MƏQSƏD | FƏALIYYƏT | ICRAÇI | MÜDDƏT |
|---|---|---|---|
| 2.1 Təlim və öyrənmənin keyfiyyətinin artırılması üçün dərslərdə müasir təlim nəzəriyyələrindən və metodlarından istifadəyə kömək etmək | 2.1.1 Təlim və öyrənmənin fəlsəfi yanaşmaları haqqında təlimlər təşkil etmək<br>2.1.2 Təlim və öyrənmə proseslərinə təsir göstərən əsas nəzəriyyələr haqqında təlimlər təşkil etmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |
| 2.2 Müəllimlərin dərslərdən əvvəl dərsin düzgün təhlilini aparmasına kömək etmək | 2.2.1 Müəllimlər üçün öyrənənlərin təhlilinin aparılması haqqında təlimlər təşkil etmək<br>2.2.2 Müəllimlər üçün mövzunun təhlili haqqında təlimlər təşkil etmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |
| 2.3 Təlim materiallarının hazırlanması və düzgün təlim strategiyalarından istifadədə müəllimlərə kömək etmək | 2.3.1 Müxtəlif təlim nəticələri üçün uyğun təlim strategiyalarının seçilməsində heyətin bacarıqlarının artırılması<br>2.3.2 Dərslərin dizaynı və məzmunun tələbələrə ən yaxşı yolla çatdırılması mövzusunda seminarlar təşkil etmək<br>2.3.3 Təlim materiallarının yaradılması zamanı lazım olan əsas prinsiplər haqqında təlimlər təşkil etmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |
| 2.4 Müəllimlərin düzgün qiymətləndirmə metodlarından istifadə etdiyinə əmin olmaq | 2.4.1 Müəllimlərə təlim nəticələrinə uyğun qiymətləndirmə metodlarının seçilməsində köməklik göstərmək<br>2.4.2 Müəllimlərə tələbələrin əzbərləmə yox düzgün qavrama qabiliyyətini ölçən testlərin hazırlanmasında köməklik göstərmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |
| 2.5 Tədris proqramlarını təkmilləşdirmək üçün düzgün idarəetmə və qiymətləndirmə vasitələrinin seçilməsinə dəstək vermək | 2.5.1 Təlim və öyrənməni inkişaf etdirmək üçün müəllimlərə formativ qiymətləndirmənin aparılmasında köməklik göstərmək<br>2.5.2 Proqramın nəticələrinin əldə olunub və ya olunmadığını müəyyənləşdirən summativ qiymətləndirmə haqqında təlimlər təşkil etmək<br>2.5.3 Dərsin idarə olunması və planlaşdırılması ilə bağlı olan əsas məsələlər haqqında təlimlər təşkil etmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |
| 2.6 Təlim və öyrənmənin keyfiyyətinin artırılması üçün təhsil texnologiyalarının tətbiq etmək | 2.6.1 Təhsil texnologiyalarının seçilməsi, inteqrasiyası, tətbiqi və qiymətləndirilməsi mövzusunda təlimlər təşkil etmək<br>2.6.2 Müəllim və tələbələrə oyunlar, simulyasiyalar, vritual reallıq və s. kimi təhsil texnologiyalarının istifadəsində köməklik etmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |
| 2.7 Dərs zamanı motivasiyanı artırmaq üçün müəllimlərə köməklik göstərmək | 2.7.1 Motivasiyaya təsir edən amillər mövzusunda təlimlər təşkil etmək | Muasir təlim mərkəzi<br>Tədris şöbəsi<br>Bütün əlaqəli fakültə dekanlıqları və kafedralar | 2018-2020 |

# FƏALİYYƏT PLANI ÇƏRÇİVƏSI



## MƏQSƏD 3

Universiteti təhsil-tədqiqat mərkəzinə çevirmək, sahibkarlıq mədəniyyətini formalaşdırmaq, iqtisadi inkişafı sürətləndirmək və cəmiyyətə fayda vermək üçün universitetin akademik və elmi tədqiqat fəaliyyətlərini yaxşılaşdırmaq.

| ALT MƏQSƏD | FƏALİYYƏT | İCRAÇI | MÜDDƏT |
|---|---|---|---|
| 3.1 Tədqiqatların keyfiyyətini yüksəltmək üçün resursların artırılması, yaxşılaşdırılması və onlardan effektiv istifadəni təmin etmək | 3.1.1 Sənaye ilə əlaqələrin qurulmasına dəstək məqsədi ilə innovasiyalar departamentini yaratmaq<br>3.1.2 Büdcədənkənar mənbələrdən vəsaitlərin cəlb edilməsi məqsədi ilə sponsorlara işi təşkil etmək<br>3.1.3 Tədqiqat üsulları və bacarıqları mövzusunda təlimlər təşkil etmək<br>3.1.4 Məlumatların toplanması və təhlili mövzusunda təlimlər təşkil etmək<br>3.1.5 Universitetin tədqiqat siyasəti mövzusunda seminarlar təşkil etmək | -Elm və innovasiyalar üzrə prorektorluq<br>-İnnovasiyalar departamenti<br>-Mühasibatlıq | 2017-2020 |
| 3.2 Tədqiqatçılara elmi tədqiqatların nəticələrinin biznes imkanlarına çevrilməsi üçün kömək etmək | 3.2.1 Elmi tədqiqatın nəticələrinin kommersiyalaşdırılması haqqında seminarlar keçirmək<br>3.2.2 Tədqiqatların sənaye ehtiyaclarına uyğunlaşması üçün bazar təhlilini aparmaq<br>3.2.3 Web of Science kimi elmi məqalə indeksləşdirmə xidmətlərindən istifadə zamanı tədqiqatçılara kömək etmək | -Elm və innovasiyalar üzrə prorektorluq<br>-Texnologiyanın transferi və marketinqi şöbəsi<br>-Strateji təhlil və araşdırma mərkəzi | 2018-2020 |
| 3.3 Prosesləri beynəlxalq təcrübə əsasında təkmilləşdirmək və beynəlxalq səviyyədə tədqiqat imkanları yaratmaq | 3.3.1 Tədqiqatçıların beynəlxalq konfranslarda iştirakına kömək etmək<br>3.3.2 Beynəlxaq mütəxəssislər tərəfindən elmi tədqiqatla əlaqəli ustad dərsləri təşkil etmək<br>3.3.3 Elmi tədqiqatla bağlı beynəlxalq mübadilə proqramlarında iştirak etmək üçün imkanlar yaratmaq | Beynəlxalq əlaqələr şöbəsi | 2016-2020 |
| 3.4 Elmi tədqiqatlarla bağlı görülmüş işlər haqqında məlumatların yayılmasını təmin etmək | 3.4.1 Yerli və milli saytlarda, jurnallar, televiziya və sosial mediada elmi tədqiqat fəaliyyətlərini təbliğ etmək | Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi | 2016-2020 |